# Milli Təhlükəsiz İnternet Mərkəzlərin yaradılmasının aktual problemləri

Sabirə Allahverdiyeva

*AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan*

sabiraas@list.ru

***Xülasə*—Məqalədə İnternet mühitində kibertəhlükələrin uşaq və yeniyetmələrin həyatında yaratdığı problemlərə baxılmışdır. Milli Təhlükəsiz İnternet Mərkəzlərinin yaradılması, fəaliyyəti tədqiq edilmişdir. Avropa Birliyinə daxil olan ölkələrdə fəaliyyət göstərən nümunəvi Milli Təhlükəsiz İnternet Mərkəzlərinin təcrübələri şərh edilmişdir. Ölkəmizdə Milli Təhlükəsiz İnternet Mərkəzinin yaradılmasının vacibliyi əsaslandırılmış və bununla bağlı təklif və tövsiyələr qeyd olunmuşdur.**

***Açar sözlər—uşaqların təhlükəsizliyi; kibertəhlükə; kibertəhdi;, internet asılılıq; təhlükəsiz internet; maarifləndirmə mərkəzləri; yardım xətləri; qaynar xətlər.***

## I. GİRİŞ

İnternetin inkişaf tendensiyası, bura daxıl olan sürətli və müxtəlif məzmunlu informasiya axını, bu mühitdə təhlükələrin mövcudluğuna şərait yaradaraq kibercinayətkarlara geniş meydan açır. Virtual mühitdə uşaq və yeniyetmələr istifadəçi kimi fəal olması, müxtəlif məkanlarda yaşayan insanlarla əlaqə saxlamaq, ətraf aləmi daha çox öyrənmək həvəsi və müasir texnologiyalara olan maraqları onları onlayn "yırtıcı" ların qurbanına çevirir.

Ən başlıcası odur ki, uşaqlar İnternetdə olan təhlükələrin ciddiliyindən xəbərsizdirlər və şəxsi məlumatlarını olduğu kimi sosial şəbəkələrdə, bloglarda, çat və forumlarda yerləşdirərək, bilməyərəkdən özlərinə əlçatarlığa yol açırlar. Uşaqların əksəriyyəti İnternetdə aldadılır, zorakılığa məruz qalır, təhqir olunur, texniki və sosial-psixoloji kibertəhdidlərlə üzləşir.

İnternet mühiti ziyanlı, aqressiyanı, zorakılığı təbliğ edən mətnlər və ümumiyyətlə, istifadəçiyə zərər verə biləcək məlumatları yerləşdirən insanlar üçün əlverişlidir. Ünsiyyətin virtual şəxslə baş verməsi buna tamamilə şərait yaradır.

Cinayətkarlar uşaq psixologiyasının həsaslığından istifadə edərək çat, sosial şəbəkə və forumlarda onlarla əlaqə yaradır, mehriban ünsiyyət quraraq, çox vaxt onlayn olaraq deyil, real həyatda görüşməyə can atırlar. Onlayn mühitdə uşaqlar üçün ən ciddi təhlükə uşaq pornoqrafiyasının istehsalçıları və yaşa uyğun olmayan cinsi mesajlaşma (sexting) ilə özlərinin pis əməllərini İnternet üzərindən yayan insanlar tərəfindən törədilir. Bu isə uşaqların onlayn cinsi istismarına gətirib çıxarır [1].

Kibercinayətkarlar azyaşlıları müxtəlif qruplara, icmaya cəlb edir, dini, irqi ayrı-seçkiliyi təbliğ edir. Uşaqlarla münasibət yaradır, müxtəlif məqsədlər üçün – narkotikdən istifadə, terrora, uşaq intiharına cəlbetmə və s. kimi pis vərdişlərin yerinə yetirilməsi üçün təbliğat aparır. Hələ tam olaraq faydalı informasiya ilə təhlükənin fərqini ayırd edə bilməyən gənc insanın beynini zəhərləyir, onların iradəsinə təsir edirlər.

Virtual fırıldaqçı və dələduz insanlar tərəfindən istifadə edilən "phishing" texnologiyası vasitəsilə istifadəçilərin güvənini qazandıqdan sonra onları aldadaraq, kredit kartı nömrələrini, hesab nömrələrini, parol və şifrələri, İnternet bankçılığında girişdə istifadə olunan istifadəçi kodu və şifrələri əldə edirlər. Təcrübəsiz yeniyetmənin fırıldaqçıların toruna düşməsi ailələrə maddi və mənəvi ziyan hesabına başa gəlir.

Çox vaxt yeniyetmələri təhlükələrə sürükləyən səbəblərdən biri onların şəbəkədə yerli-yersiz axtarışlar etməsi, yaxud şəbəkə oyunlarına olan alüdəçiliyi olur. Oyunlar uşaqların davranışlarında dəyişiklik yaradır, yad mədəniyyətləri təbliğ edir, gənc nəsli milli adət-ənənələrdən uzaqlaşdırır. Oyunların təsiri ilə baş verən uşaq cinayətləri İnternetin ailələrə bəxş etdiyi mənfiliklərdən biridir. Uşaqlar İnternetdən qəbul etdikləri sürətli və böyük həcmli informasiya hesabına məlumatlandıqca kompüterdən asılı vəziyyətə düşür, reallıqla virtual dünya arasında çaşıb qalırlar. Odur ki, informasiya təhlükəsizliyinin təmin olunmaması cəmiyyət üçün böyük fəsadlar törədə bilər [2].

İnternetdə təhlükəsizlik məsələsi İnformasiya Cəmiyyətinin əsas qayğılarından biridir. Azərbaycan Respublikasının prezidentinin 2014-cü il 2 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da informasiya təhlükəsizliyinin təmin edilməsi, elektron mühitdə yarana biləcək təhlükələrin qarşısının alınması bir istiqamət kimi təyin edilir. Milli Strategiyada nəzərdə tutulmuş: "Uşaqların qanunazidd və təhlükəli kontentdən qorunması üçün "təhlükəsiz İnternet" mexanizminin işlənilməsi və tətbiqi" ölkəmizdə uşaqların elektron mühitdə təhlükəsizliyinin təmin edilməsinə dair görüləcək işlərə təkan verir [3].

## II. TƏHLÜKƏSİZ İNTERNET MƏRKƏZLƏRİNİN YARANMASI TARİXİ

İnternetdə təhlükəsizliyin təmin olunması və eyni zamanda bu mühitin aztəcrübəli üzvü olan uşaqlara yönəlmiş kibertəhlükələrin qarşısının alınması problemi dünyanın bir çox yerlərində dövlətləri, əlaqədar təşkilatları narahat edən vacib məsələlərdən biridir. Avropa Birliyi (AB) İnternet mühitində bütün sahələrdə uşaqların mühafizəsini dəstəkləyir və təhlükələrin qarşısının alınması üçün uyğun siyasət həyata keçirir. "Təhlükəsiz İnternet Proqramı" (Safer Internet Programme) 1999-cu ildə Avropa Komissiyası tərəfindən hazırlanmış 2009 – 2013-cü illəri əhatə edən və mərhələli

şəkildə həyata keçirən proqramdır [4]. Bu proqramın missiyası:

- Milli və Ümumavropa səviyyələrində hər zaman İnternetə güvəni artırmaq;
- Qanunazidd kontentlərlə mübarizə aparmaq;
- Kontent filtirasiyası;
- Vətəndaş cəmiyyətinin uşaqların onlayn təhlükəsizliyi problemlərinə cəlbedilməsi;

Bunlarla yanaşı gənc insanların yeni texnologiyalardan istifadəsi ilə bağlı etibarlı bazaların yaradılması və bu bazalara maliyyənin ayırması yolu ilə həyata keçirilir.

Proqram çərçivəsində təhlükəsizlik siyasəti AB-yə daxil olan ölkələrdə yaradılan Təhlükəsiz İnternet Mərkəzləri (TİM) vasitəsilə həyata keçirilir. Bu mərkəzlər gənclərin İnternetdən və mobil qurğulardan təhlükəsiz və məsuliyyətli istifadəsini təmin edir. Onların fəaliyyətlərinə Web 2.0. inkişaf etdirmək, azyaşlı uşaqlar üçün keyfiyyətli kontent istehsalı, kiberzorakılığa qarşı fəaliyyət və uşaqların onlayn qaydada cinsi istismara cəlbedilməsinin qarşısını almaq, eyni zamanda uşaqların kompüterdən istifadəsi ilə bağlı baza biliklərinə olan ehtiyacı və riskləri daxil edilir.

Avropada əhalini İnternetdə olan təhlükələr barəsində məlumatlandırmaq məqsədilə "İnsafe" (www.insafe.org) Təhlükəsiz İnternet Mərkəzləri Şəbəkəsi (TİMŞ) yaradılmışdır. TİM-lər vasitəsilə maarifləndirmə və təhsil kampaniyaları həyata keçirilir. 2004-cü ildən başlayaraq ənənəvi olaraq ildə bir dəfə onlayn təhlükəsizlik üzrə Təhlükəsiz İnternet Forumunu təşkil edir, hər il fevral ayının ikinci çərşənbə axşamı günü "Təhlükəsiz İnternet Günü"nü qeyd edərək, dövləti, kütləvi informasiya vasitələrini, qeyri-hökümət təşkilatlarını, ictimayyəti və s. bir araya gətirir.

## III. TƏHLÜKƏSİZ İNTERNET MƏRKƏZLƏRİNİN FUNKSİYALARI

Avropa məkanında əhalini İnternetdə olan təhlükələr barəsində məlumatlandıran, İnternet və mobil qurğulardan təhlükəsiz qalmasına məsuliyyət daşıyan və Avropanın 30 ölkəsində fəaliyyət göstərən TİM-lər mövcuddur. Adətən TİM-lərin tərkibində aşağıdakı xidmətlər daxildir [4].

- Maarifləndirmə mərkəzləri (Awareness Centre);
- Gənclik Panelləri (Youth Panel);
- Yardım xətləri (Helpline);
- Qaynar xətlər (Hotline).

Maarifləndirmə mərkəzləri (Awareness Centre) – səlahiyyətli insanları, valideynləri, himayədarları və müəllimləri gənc insanların İnternetdən istifadəsi zamanı yaranacaq potensial risklərlə bağlı məlumatlandırır və onların təhlükəsizliyini təmin edir. Bu maarifləndirmənin artırılması işini təhsil materiallarının hazırlanması, kampaniyaların və informasiya sessiyalarının təşkili ilə aparır. European Schoolnet tərəfindən koordinasiya edilir [4].

*Gənclik Panelləri (Youth Panel)* – qrup gənclərdən təşkil olunmuşdur. Nisbətən böyük yaşlı və İnternetdə olan təhlükələr barədə məlumatlı qrup üzvləri vasitəsilə daha azyaşlıların İnternetin təhlükələrindən qorunması üçün öyrədici xarakterli bir qrupdur. Qrup üzvləri ölkədəki Milli İnternet şəbəkəsinin liderləri ilə görüşlər təşkil edir, səlahiyyətli şəxslərin diqqətini bu məsələlərə cəlb edərək, onların məsləhət və təcrübələrindən istifadə edirlər. İnternetin faydalı və ziyanlı tərəfləri ilə bağlı video-çarxlar, dərs vəsaitləri və s. hazırlayırlar [4].

Gənclik Panellərinin üzvləri hər il ənənəvi olaraq Forum keçirir, hər bir Milli Təhlükəsiz İnternet Mərkəzini, Ümumi Avropa Gənclik Panelinin (Pan-European Yoth Panel) üzvlərini Forumda iştirak etmək üçün dəvət edir. Bu tədbir vasitəsilə İnternetdə və müasir mediada olan 12–18 yaş arası gənc insanlar cari məsələlərin fayda və risklərini müzakirə etmək üçün bir araya gəlirlər. Maarifləndirmə mərkəzinin üzvləri, sənaye nümayəndələri, siyasətçilər və digər maraqlı tərəflər mediadan istifadə ilə bağlı müxtəlif məsələləri müzakirə edir. Mediadan istifadə ilə rəqəmsal məsələlərlə bağlı məlumatlandırmalar aparmaqla ən yaxşı İnternet təhlükəsizliyinə nail olmağın yollarını tapmağa çalışırlar.

*Yardım xətləri (Helpline)* – yardım xətləri İnternetdə təhlükəsizliyin təmin olunması ilə bağlı gənc insanlara, valideynlərə, müəllimlərə və himayədarlara fərdi qaydada məlumat verir, "İnsafe" tərəfindən koordinasiya edilir [4].

*Qaynar xətlər (Hotline)* – cəmiyyətdən qanunazidd kontnetlər (terrora cəlbedilmə, vandalizm və nifrət dəstəkləyən materiallar, narkotik vasitələrin qeyri-qanuni istifadəsi və s.) və uşaqların cinsi istismarı ilə bağlı konkret faktlar haqqında məlumatları qəbul edir. Qaynar xətlər bu tip faktları araşdırır, onlar həqiqətə uyğun olduqda bu materialların əslini tapırlar. Qanunazidd kontent aşkarlandıqda qaynar xətlər tərəfindən ölkənin hüquq-mühafizə orqanlarına, eyni zamanda İnternet xidməti provayderinə razılaşdırılmış məlumat verilir və prosedur qaydada ölçü götürülür. Əgər qanunazidd kontent başqa bir ölkədə saxlanılırsa, bu haqda həmin ölkənin qaynar xəttinə məlumat verilir [4].

Qaynar xətlər "INHOPE" Beynəlxalq Qaynar Xətlər Assosasiyası tərəfindən, www.inhope.org saytı vasitəsi ilə koordinasiya edilir. Assosasiyaya Avropa İttifaqı üzvlərindən əlavə, Rusiya, Kanada, Tayvan, Avstraliya, Yaponiya, CAR, Cənubi Koreya Respublikası və ABŞ daxildir.

## IV. MÜXTƏLİF ÖLKƏLƏRİN MİLLİ TƏHLÜKƏSİZ İNTERNET MƏRKƏZLƏRİNİN TƏHLÜKƏSİZLİK SİYASƏTİ

İnternetdə uşaqların təhlükəsizliyinin təmin olunması, Milli Təhlükəsiz İnternet Mərkəzinin (MTİM) yaradılması və apardığı siyasətlə bağlı dünya ölkələrində müxtəlif fəaliyyətlər mövcuddur. Bir neçə ölkənin MTİM-lərinin təcrübəsini nəzərdən keçirək.

Avropada nümünəvi MTİM-lərdən biri Birləşmiş Krallığın Təhlükəsiz İnternet Mərkəzidir [5]. Mərkəz 3 təşkilatla tərəfdaşlıq quraraq maraqlı layihələr həyata keçirir.

- South West grid for learning – İnternetdən istifadəni öyrədir və müəllimlərlə işləyir;
- Childnet – İnternet mühitində təhlükəsizliyin təmin edilməsini öz fəaliyyətində missiya kimi qəbul edir;
- İnternet Watch Foundation (IWF) – Qaynar xətt kimi fəaliyyət göstərir və kriminal kontentlərlə mübarizə aparır.

Mərkəz İnternetin və texnologiyaların təhlükəsiz istismarı ilə bağlı böyük miqyaslı təbliğat həyata keçirərək, ölkədə uşaqlar üçün təhlükəsiz elektron mühitin yaradılması üçün peşəkarları işə cəlb edir, onlayn kriminal kontentlərə qarşı ölkə miqyasında əməliyyatlar aparır, ölkə miqyasında "Təhlükəsiz İnternet" gününün təşkilinə cavabdehlik daşıyır, uşaqlar, valideynlər, himayədarlar və müəllimlər üçün onlayn resurslar hazırlayır.

Birləşmiş Krallığın TİM-i maraqlı layihələr həyata keçirir, müxtəlif yaş qrupundan olan uşaqlara, valideyn və himayədarlara eyni zamanda müəllimlərə təlimatlandırıcı məlumatlar verir. Mərkəz ölkənin 4 İnternet provayderi ilə əldə etdiyi razılığa əsasən təklif edilən "ailə nəzarəti" paketlərinin tətbiqetmə və onlara qoşulma üsullarını təbliğ edərək, qurğularda təhlükəsizlik məsələlərini, tövsiyələr və resursları istifadəçilərə təklif edir. Peşəkarların reputasiyasından bəhrələnir. Bu resurslara dəyişən İnternet mühitində cinsi istismar xarakterli yazışmalarla mübarizə, valideynlər üçün "Necə etmək olar" videoları da daxil edilir.

Avstriya MTİM-i Qeyri Hökumət Təşkilatı (QHT) olan Avstriya Tətbiqi İnternet İnstitutu tərəfindən yaradılıb. Mərkəzdə TİM-in funksiyalarına daxil olan maarifləndirmə mərkəzləri, gənclik panelləri, yardım xətləri və qaynar xətt xidmətləri mövcuddur. Təhlükələrin qarşısının alınmasına dair müxtəlif fəaliyyətlər həyata keçirir. Onun fəaliyyətlərindən biri kimi 2013-cü ildə 3–6 yaşlı uşaqlar arasında İnternetdən istifadəyə dair aparmış olduğu sorğunu qeyd etmək olar. Müəyyən olunmuşdur ki, sorğuda iştirak edənlərin 52%-i artıq İnternet istifadəçiləridir. Mərkəz eyni zamanda, valideynlər, müəllimlər və himayədarlar üçün kitabçalar hazırlayır və uğurlu media kampaniyaları həyata keçirir. Həmin il məktəblərdə təşkil edilmiş 850-dən artıq təlimlərdə 16000 nəfərdən çox uşaq, 5000 nəfərdən artıq müəllim, valideyn, himayədar öyrədilmişdir. Eyni zamanda sosial mediadan istifadəyə dair müxtəlif vəsaitlər hazırlanıb paylanmışdır [6].

Almaniyada MTİM 2008-ci ildə yaradılmışdır. MTİM-də həm uşaqlar, həm də valideynlər üçün nəzərdə tutulmuş yardım xətti, iki qaynar xətt (Internet-Beschwerdestelle.de və jugendschutz.ne), maarifləndirmə mərkəzi – Klicksafe və gənclərlə iş mərkəzi fəaliyyət göstərir. Mərkəz valideyn, himayədar, və müəllimlərlə və müxtəlif yaş qruplarından olan uşaqlarla iş aparır və uşaqların hüquqlarını qoruyur. Nümunəvi MTİM-dən biridir [7].

Rusiyada 2008-ci ildən MTİM İnternet Texnologiyaları Regional İctimai Mərkəzi, "Angel Koalisiyası" və "Soprotivlenie" insan hüquqları hərəkatı konsorsiumu olan Rusiya Qeyri Hökümət Təşkilatlarının (QHT) dəstəyi ilə fəaliyyətə başlamışdır, Rusiya Mülki Palatası və Uşaq Ombudsmanı idarəsinin rəhbərliyi tərəfindən dəstəklənir [8].

Rusiya MTİM-lərin arxtekturasına başqalarında olduğu kimi: yardım xətləri, qaynar xətlər, maarifləndirmə mərkəzi, gənclərlə iş xidmətləri daxildir. Mərkəz veb səhifəsində uşaq və yeniyetmələrlə iş apararaq, kibertəhdidlərin müxtəlif növləri haqqında Rusiyanın aparıcı ekspert və analitiklərinin şərhini verir və istifadəçilərə konsaltinq xidmət göstərir. 2012-ci ildən Rusiya itkin düşmüş uşaqların məlumat bazasına inteqrasiya edilmişdir. www.nedopusti.ru saytı vasitəsilə axtarışda olan uşaqların elanı verilir.

Yuxarıda qeyd olunan TİM-lərin hər biri TİMŞ-ə qoşulmuş 30 Təhlükəsiz İnternet Mərkəzi ilə əlaqəli işləyir. Hər il fevral ayında "Təhlükəsiz İnternet günü"nü qeyd edir, Forumlarda iştirak edərək birgə informasiya və təcrübə mübadiləsi həyata keçirir. Hesabatlar hazırlayır və sosial sorğular keçirməklə daha yaxşı təhlükəsiz İnternet mühitinə nail olmağa çalışırlar.

## NƏTİCƏ

İnternetdə uşaqların təhlükəsizliyi aktual bir problemdir. Ölkəmizdə bu problemin həlli ilə bağlı müəyyən işlər görülür. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) və Təhsil Nazirliyinin dəstəyi ilə təhsil müəssisələrində filtirasiya sistemi tətbiq edilir, maarifləndirici tədbirlər keçirilmişdir. Azərbaycan İnternet Forumu, Təhsil Nazirliyi və Microsoft şirkətinin Azərbaycandakı nümayəndəliyi tərəfindən tövsiyə məqsədilə kitabça hazırlanmışdır [9]. Azərbaycan İnsan Hüquqları Müvəkkiliyinin tövsiyələrinə uyğun olaraq BMT-nin "Uşaq hüquqları "Konvensiyasının qəbul olunmasının 25 illiyinə həsr olunmuş "Hər bir uşağın qayğısına qalaq!" aylığı kecirilmişdir. Təhsil Nazirliyində "İnternetdən istifadə məsələləri üzrə Şura" yaradılmışdır [10].

Keçirilən müxtəlif tədbirlərə baxmayaraq, virtual məkanda mümkün təhdidlərdən qorunmaq və İnternetdəki təhlükələrin qarşısının alınması məqsədilə Azərbaycanda MTİM-in yaradılması həlli vacib olan məsələlərdən biridir. Artıq kibertəhlik üzrə maarifləndirmənin aparılmasına, informasiya və texnologiyalardan təhlükəsiz istifadə mədəniyyətinin yüksəldilməsinə ehtiyac duyulur. Cəmiyyətdə kibertəhlükələr haqqında maarifləndirmənin aparılması, yardım və qaynar xətlərin yaradılması, uşaqların qanunazidd və təhlükəli kontentdən qorunması üçün mexanizmlərin işlənilməsi bu sahədə görüləcək ilk işlərdən biri olmalıdır.

Beynəlxalq təcrübənin öyrənilməsi və informasiya təhlükəsizliyi sahəsində müvafiq beynəlxalq təşkilat olan "İnsafe" ilə əməkdaşlığın qurulması MTİM-in fəaliyyətinə müsbət təsir göstərəcəkdir. Uşaqlar cəmiyyətin zərif və həssas üzvləridir. Virtual məkanda onların təhlükəsizliyinin təmin edilməsi üçün valideyn, müəllim, hökümət, QHT, KİV və s. həmrəylik göstərməlidir.

## ƏDƏBİYYAT

[1] J. Wolak, D. Finkelhor, K. J. Mitchell, M.L. Ybarra, "Online "predators" and their victims, myths, realities, and implications for prevention and treatment," American Psychologist, vol. 63, no. 2, pp. 111–128, 2008.

[2] R.M. Əliquliyev, Y.N. İmamverdiyev, F.F. Yusifov, "Cəmiyyətin informasiya təhlükəsizliyinə dair bəzi konseptual baxişlar". İnformasiya cəmiyyəti problemləri, №2(4), 3-9, 2011.

[3] Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya, 02 aprel 2014-cü il.

[4] Safer İnternet Programmer. www.saferinternet.org

[5] UK Safer internet Centre. www.saferinternet.org/united-kingdom

[6] Austrian Safer Internet Centre. www.saferinternet.org/austria

[7] Germany Safer Internet Centre. www.saferinternet.org/germany

[8] Russian Safer Internet Centre. www.saferunet.ru

[9] www.azertag.az

[10] R.Ş.Mahmudova, S.S.Allahverdiyeva, "Elektron mühitdə gənc nəslin təhlükəsizliyinin təmin edilməsi problemləri", Elektron dövlət quruculuğu problemləri I Respublika elmi-praktiki konfransının əsərləri, 2014, s.185-188.